**Cəfərov, M.** Müharibə başlayacaq şəhid olacam // Respublika. - 2025. - 10 iyul. - **№ 139**. - S. 7.

Azərbaycanın Vətən müharibəsində parlaq qələbə qazanmasında, torpaqlarımızın işğaldan azad olunmasında, düşmənin torpaqlarımızdan qovulmasında qəhrəmancasına vuruşan və şəhid olan igid oğullardan biri də kəşfiyyatçı leytenant Mayis Yaqubovdur.

Yaqubov Mayis Rəhim oğlu 1998-ci il aprelin 20-də Qazax rayonunun Daş Salahlı kəndində anadan olub. Orta məktəbi doğma kəndində bitirib. O, idmanın bir neçə sahəsi ilə məşğul olub. Mayis 2012-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə yüksək nəticə ilə qəbul olunub. 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və arzusunda olduğu kəşfiyyatçı ixtisasını seçib. Oxuduğu müddətdə müəllimlərinin və komandirlərinin hörmətini qazanıb.

Mayis təhsil illərində rus və erməni dilinə xüsusi diqqət göstərib. Hər zaman deyərmiş: "Əsl kəşfiyyatçı düşmənin dilini yaxşı bilməlidir". Hətta ona hərbi məktəbdə erməni dili müəllimi kimi işləmək də təklif olunub, ancaq Mayis imtina edib. Bildirib ki, bu dili müəllim olmaq üçün deyil, yaxşı kəşfiyyatçı olmaq üçün öyrənib. 2019-cu ildə Azərbatcan Hərbi Məktəbini bitirib və Xüsusi Təyinatlı Qüvvələrdə 6 aylıq kursdan keçib. Lakin zədə aldığı üçün son mərhələdən adlaya bilməyib. Beləliklə, mərhələni bitirmədən təyinatını Naxçıvanın Şahbuz rayonuna veriblər.

O, 8-9 ay ərzində Şahbuzun qarlı dağlarında xidmət edib və sonrakı xidmətini xüsusi təyinatlı qüvvələrdə davam etdirib. Vətən müharibəsində Mayis Naxçıvandan gələn ilk XTQ-nin tərkibində döyüşlərdə iştirak edib. Hadrutun işğaldan azad edilməsi və əks-hücumların qarşısının alınmasında böyük qəhrəmanlıq, Füzulinin bir sıra kəndlərinin geri alınmasında igidlik göstərib. Qəhrəmanlığı ilə həmişə qəlblərdə yaşayan kəşfiyyatçı leytenantı döyüş yoldaşları "Əjdaha" ləqəbi ilə çağırırmışlar.

Mayis 2020-ci il oktyabrın 17-də Xocavəndin Tuğ kəndi istiqamətində gedən qızğın döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Onun nəşini 5 gün sonra böyük çətinliklə ərazidən çıxarmaq mümkün olub. Oktyabrın 22-si doğulduğu Qazax rayonunun Daş Salahlı kəndinin Şəhidlər xiyabanında torpağa tapşırılıb. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən Mayis Yaqubov ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" ,"Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Uşaqlıqdan milli ruhda tərbiyə alan Mayisin ən çox sevdiyi musiqi "Anama deyin" mahnısı olub. Anası söyləyir ki, o, həmişə bu mahnıya qulaq asarmış: "Telefonunda çox mahnı da olmurdu. Deyirdi ki, bu mahnı çox xoşuma gəlir. Mənə layladı elə bil. Deyirdi, ay ana, yuxumda özümü bayraqla görmüşəm. Heç sən yuxunda məni bayraqla görmüsən? Bilirəm, müharibə başlayacaq, şəhid olacam... Sanki hər şeyi əvvəlcədən görürdü...".

Şəhidin atası Rəhim Yaqubov oğlunun uşaqlıqdan hərb sənətinə marağının olduğunu bildirir: "O, filmlərdə döyüş səhnələrinə maraqla baxardı. Dayısı da hərbçi idi. Ona baxıb həvəslənirdi, general olacağını deyirdi. İdmanla məşğul olurdu. Özünü hazırlayırdı".

"Balaca vaxtından həmişə yaşını qabaqlayan uşaq olub. Qorxmaz idi, nağılları sevirdi. Mayisi nağıllarla böyütmüşəm. Özünü qəhrəman kimi hiss edirdi. Deyirdi, elə nağıl danış ki, o nağılın qəhrəmanı mən olum", - deyə nənəsi Telli Yaqubova bildirib. Müharibə başlayanda könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edən qardaşı Etibar deyir ki, Mayislə paradda birgə iştirak edib və o günləri heç vaxt unutmayacaq: "Mən hərbi xidmətdə olanda, 2018-ci ildə ordumuzun 100 illiyi ilə əlaqədar keçirilən paradda Mayislə qarşılaşdım. Bir-birimizdən xəbərimiz yox idi. Paradda hər ikimiz iştirak etdik, qardaşımla xatirə şəkli çəkdirdik. Mən qardaşımla həmişə fəxr etmişəm. Bu gün də fəxr edirəm".